KEYFİYYƏTƏ KƏNAR NƏZARƏT SAHƏSİNDƏ YOL VERİLƏN NÖQSANLARIN PROFİLAKTIKASI VƏ MÖVCUD RİSKLƏRİN AŞKAR EDİLMƏSİ MƏQSƏDİLƏ TƏHLİLİN APARILMASI VƏ TƏKLİFLƏRİN VERİLMƏSİ BARƏDƏ

# HESABAT

1. Monitorinqin Əsasları

Auditorlar Palatası Şurasının 2024-cü il 23 dekabr tarixli 371/2 nömrəli qərarı əsasında tərtib edilmiş “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2025-ci il üçün Plan-qrafik” çərçivəsində monitorinqlər aparılmışdır.

Monitorinq 2025-ci ilin yanvar, fevral və mart aylarını əhatə etmiş və bu dövrdə 7 auditor təşkilatı və 2 sərbəst auditorun fəaliyyəti yoxlanılmışdır. Monitorinqi aparılmış auditor təşkilatları və sərbəst auditorlar aşağıdakılardır:

| **Monitorinq subyektləri** | **Aşkar edilmiş nöqsanlar** |
|---|---|
| Kərimov Şamxal Vəli oğlu | Əhəmiyyətli nöqsan aşkar edilməmişdir |
| “CONSULTİNG GROUP” MMC<br>Direktor: Əkbərov Elçin | 315 saylı “Müəssisə və onun mühitinin öyrənilməsi əsasında əhəmiyyətli təhriflər riskinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi Beynəlxalq Audit Standartı |
| “Azel - Audit” MMC<br>Direktor: Süleymanova Elzadə | 505 saylı “Kənar mənbədən təsdiqləmələr” Beynəlxalq Audit Standartı |
| “BKR İŞIK Konsaltinq” MMC<br>Direktor: Şahtaxtinskaya Aysel | Əhəmiyyətli nöqsan aşkar edilməmişdir |
| Hacı-Əzizov İlham İsfəndiyar oğlu | 505 saylı “Kənar mənbədən təsdiqləmələr” Beynəlxalq Audit Standartı |
| “L.B. Audit xidməti” MMC<br>Direktor: Bayramova Lamiyə | 700 saylı “Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi” və 705 saylı “Müstəqil auditorun hesabatındakı Rəyə edilən dəyişikliklər” Beynəlxalq Audit Standartları |

| | |
|---|---|
| “INTERAUDİTSERVİCE” MMC<br>Direktor: Abbasov Anar | 315 saylı “Müəssisə və onun mühitinin öyrənilməsi əsasında əhəmiyyətli təhriflər riskinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi, 500 saylı “Audit sübutları” və 505 saylı “Kənar mənbədən təsdiqləmələr” Beynəlxalq Audit Standartları |
| “Cavid-Audit” MMC<br>Direktor: Məmmədov Şahbaz | 500 saylı “Audit sübutları” və 505 saylı “Kənar mənbədən təsdiqləmələr” Beynəlxalq Audit Standartları |
| “Q.R.T. Audit” MMC<br>Direktor: Qənizadə Cəmilə | 505 saylı “Kənar mənbədən təsdiqləmələr” Beynəlxalq Audit Standartı |

2. Monitorinqin nəticələri və aşkar edilən nöqsanlar

Aşkar edilən əsas nöqsanlar aşağıdakılardır:

- Audit proseslərinin Beynəlxalq Audit Standartlarına tam uyğun olmaması;
- Sənədləşmədə və audit prosedurlarında qeyri-dəqiqliklərin mövcudluğu;
- Audit metodlarının müasir tələblərə cavab verməməsi;
- İşçi heyətinin audit sahəsində bilik və bacarıqlarının yetərincə olmaması;
- Risklərin vaxtında aşkar edilməməsi və profilaktik tədbirlərin gecikdirilməsi.

3. Təkliflər və Profilaktik Tədbirlər

Mövcud nöqsanları aradan qaldırmaq və riskləri minimuma endirmək üçün aşağıdakı tədbirlərin görülməsi təklif olunur:

**Auditor təşkilatları üçün:**

İşçi heyətinin audit sahəsində bilik və bacarıqlarının artırılması mövzularının ixtisasartırma proqramına daxil edilməsi;

Daxili audit sisteminin gücləndirilməsi;

Audit prosedurlarının beynəlxalq və yerli standartlara uyğun təkmilləşdirilməsi;

Peşəkar hazırlıq və sertifikatlaşdırma proqramlarının təkmilləşdirilməsi;

Daxili keyfiyyətə nəzarət mexanizmlərinin effektivliyinin artırılması.

**Sərbəst auditorlar üçün:**

Auditorların peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində tədbirlərin intensivləşdirilməsi;

Hesabatlılıq sisteminin şəffaflaşdırılması və sənədləşmənin Beynəlxalq Audit Standartlarına uyğun aparılması;

Audit sənədlərinin elektron formada idarə olunması üçün rəqəmsal həllərin tətbiqi;

Risk əsaslı audit yanaşmasının tətbiqinin təşviqi.

**Palata üzrə:**

Pozuntulara yol vermiş auditorların təlimlərə cəlb edilməsi;

Tələbləri ən çox pozulan Beynəlxalq Audit Standartları mövzusunun auditorların ixtisasartırma proqramına daxil edilməsi;

Tələbləri ən çox pozulan Beynəlxalq Audit Standartlarına dair şərhlərin (prosedurlar üzrə) hazırlanması;

Daxili nəzarət standartlarının tələblərinə əməl olunmasına dair nəzarətin gücləndirilməsi.

Hesabatın nəticəsi olaraq, keyfiyyətə kənar nəzarət sahəsindəki mövcud nöqsanlar və risklər təhlil edilmiş, onların qarşısını almaq üçün profilaktik tədbirlər təqdim olunmuşdur. Təklif edilən tədbirlərin həyata keçirilməsi keyfiyyət nəzarəti sisteminin gücləndirilməsinə və təşkilati səmərəliliyin artırılmasına töhfə verəcəkdir.

**Auditin innovativ inkişafı,**
**operativ tənzimləmə və keyfiyyətin**
**idarə edilməsi idarəsinin rəisi** **Barat Orucov**